*El yaddaşı saxlancından*

# Qaçaq Kərəm və Kərə Kərəm

**Deyirlər bu dağın ətəklərindən**
**Kərəm dəstəsilə yeriyib hərdən,**
**Bulaqlar başında qurban kəsərmiş,**
**Elin böyütdüyü o qəhrəmandan.**

**Səməd Vurğun**

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan, Türkiyə, İran və Rusiyada 15 il qaçaqlıq eləyən Kərəm Mollazalov 1860-cı ildə Qazax qəzasının Qıraq Kəsəmən kəndində anadan olub. Atası Molla Zal oğlu İsgəndər kəndliləri müdafiə etdiyi üçün Sibirə sürgün edilib. Lakin qürbətdən qaçaraq yenidən öz doğma diyarında haqq davası aparıb. Molla Zal oğlu İsgəndər öldürüldükdən sonra onun yarağını oğlu Kərəm götürüb.

Kərəm Azərbaycan və Dağıstanda, eləcə də, bütün Zaqafqaziyada ümumxalq məhəbbəti qazanmış el qəhrəmanı olub. Bu onun cəsurluğu, həm də ədalət hissinin güclü olması ilə bağlı idi. Zaqafqazyanın müxtəlif guşələrində Kərəmin igidliyi ilə bağlı xalq arasında bir sıra yer adları var: “Kərəm körpüsü”, “Kərəm bazarı”, “Kərəm yolu”, “Kərəm bulağı”, “Kərəm meydanı” və s. Qaçaq Kərəm 1910-cu ilin avqust ayında Tehranda vəfat edib. Kərəmin dövründə və ondan sonra da Azərbaycanda, eləcə də Qafqazda güclü qaçaq hərəkatı olub. Xalqın mərd, qorxmaz oğulları elə-obaya arxalanaraq imperiya ədalətsizliyinə qarşı vuruşublar. Tarixi faktlar göstərir ki, elə bir qaçaq yoxdur ki, namərd əlilə öldürülməsin. İgidlər igidi Kərəm o qədər ayıq-sayıq olub ki, müxənnətin ona edəcəyi suiqəsdi əvvəlcədən duyub və düşmənlərini yerindəcə məhv edib. Belə bir yenilməz igidin öz əcəlilə 43 yaşında Tehranda vəfat etməsi qaçaq hərəkatı tarixində nadir hadisədir.

Qaçaq Kərəmin şəxsi igidliyi ilə yanaşı, xalqın da ona intəhasız məhəbbəti var idi. “Qaçağı el saxlar” – deyimi məhz Kərəm kimi ədalət mücəssəməsinə deyilib. “Qafqazda qaçaqlar” əsərinin müəllifi, rus yazıçısı Maksim Qorki 1896-cı ildə yazmışdı: “Eşitdiyim külli miqdarda əhvalatlar Kərəmin insanpərvərliyi və adamlara qayğısı haqqında idi. Kərəm haqqında eşitdiklərim o qədər əfsanəvidir ki, o, hazırda sağ olmasaydı, onun, həqiqətən yaşadığına heç cür inana bilməzdim”.

Rusiyanı payi-piyada gəzən Maksim Qorkiyə Kərəm haqqında əhvalatların çoxunu Kubanda danışmışdılar: “Kərəm əfsanə və nağıllar qəhrəmanıdır; kobud olsa da ədalət mücəssəməsidir” – hökmünü verən yazıçı, az qala, onun varlığına belə inanmır. Halbuki Qaçaq Kərəm onda sağ idi. Qorkinin yazdığı “Qafqazda qaçaqlar” əsərindən sonra Kərəm 14 il yaşayıb.

**1896-cı ildə Qafqaza gələn Maksim Qorki Bojeduxovski stansiyasında Kapitan Çornı adlı bir şəxsin qonağı olur. Ev sahibi qonağına aşağıdakı əhvalatı danışıb:**

Köçəri bir Ukrayna kəndlisi Labinski bazarında var-yoxu olan bir cüt öküzünü satıb Labı çayının sahili ilə evinə qayıdırmış. Qəfildən sıx kollar arasından əlixəncərli bir nəfər çıxıb deyir:

– Mən Qaçaq Kərəməm, üstündə nəyin varsa ver, yoxsa...

Kərəm adını eşidən fağır kəndli dinməz-söyləməz pul kisəsini çıxardıb, əli əsə-əsə qaçağa verir. Pulları alan qaçaq sıx kollar arasında yoxa çıxır. Kəndli isə qarşıdan gələn qışda balalarına nə yedirdəcəyni düşünüb ağlayır. Sahildə bikef oturan bədbəxt kəndli evə nə üzlə qayıdacağını fikirləşir.

Kəndli başını qaldıranda ortaboylu, çiy-



ni yəhərli bir adam görür və soruşur:

– Nə üçün ağlayırsan?

Kəndli ona üz verən bədbəxtliyi danışır. Bu adam da Kərəmin hansı səmtə getdiyini öyrənib kəndliyə deyir:

– Otur gözlə, indi qayıdıram!

Həmin adam iki dəfə kəsik-kəsik fit çalır. Dərhal qabağına qara bir at gəlir. Atı yəhərləyib bir göz qırpımında üstünə atılır. Nərə çəkən kimi at götürülür. Ümidini üzən kəndli isə yavaş-yavaş öz yoluna davam edir. O, xeyli gedibmiş ki, birdən at ayaqlarının tappıltısını eşidib geriyə dönür. Kəndli görür ki, bu bir az əvvəl gedən adamdır, pulunu alan adam da onun tərkində oturub. Onlar kəndliyə çatanda atı sürən adam tərkindəkini göstərərək soruşur:

– Sənin pulunu alan Qaçaq Kərəm budurmu?

Ukrayna kəndlisi cavab verir:

– Odur ki var...

Atlı adam deyir:

– Kəndli qardaş, bu adam sənə it kimi yalan deyib. Qaçaq Kərəm o deyil, mənəm, Mənə bax və kim olduğumu yadında saxla. Onun səndən aldığı pulları qaytarıram, ancaq hamısını yox. Onları mən tapmışam, ona görə də üçdən birini özümə götürürəm. Sizin adətinizə görə, belə olmalıdır: hər kəs tapdığının üçdə birini özünə götürməlidir. Bunu ona görə edirəm ki, bir də məni bu pis adamla qarışıq salmayasan. Görünür, bu alçağın adı yoxdur ki, mənim Kərəm adımı özünə götürüb. İndi mən bu adsız adamı sənin üçün elə nişanlayacağam ki, gələcəkdə onu bir də mənimlə qarışdırmayasan!

Bunu deyib Kərəm quldurun yaxasından tutub dizləri üstə oturdur.

Sonra xəncəri çıxardıb onun iki qulağını kəsir...

– İndi sən oldun kərə Kərəm, mən isə Qaçaq Kərəm.

Sonra üzünü kəndliyə tutur:

– Götür, bu əclafın qulaqlarını da itinə verərsən...

**Şəmistan NƏZİRLİ,**
**yazıçı-jurnalist**

Xalq qəzeti .- 2022.- 23 oktyabr.- S.6.